

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 42 (21.703)

28 fevral 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Qətər Dövlətinə rəsmi səfərə gedib.

Qətərdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 27-də Əmir sarayında rəsmi qarşılanma mərasimi olub.

Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin fevralın 27-də geniş tərkibdə görüşü olub.

Həmin gün geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin təkbətək görüşü olub.

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı ilə Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi olub.

Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qətər Dövlətinə rəsmi səfəri fevralın 27-də başa çatıb.



## Xocalı soyqırımı Türkiyənin Aralıq bölgəsində də yad edilib





***Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu Xocalı soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair Tədbirlər Planına əsasən üçüncü tədbiri Baş Konsulluğun xidmət ərazisi olan Aralıq bölgəsində həyata keçirib.***

Tədbir Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğu ilə 15 İyul – Şəhid və Qazi Ailələri Sosial Yardımlaşma və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı əsasında həyata keçirilib.

Aralıq Dilucu Peşə və Texniki Anadolu Liseyində təşkil olunan tədbirdə Azərbaycanın Qars şəhərindəki Baş konsulu Nuru Quliyev, Aralıq bölgəsinin kaymakamı Kemal Duru, bələdiyyə sədri Bayram Peksam, qarnizon komandiri, polkovnik-leytenant Mustafa Tamer, təhsil müdiri Hakan Cerit, AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, o cümlədən Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğunun diplomatik heyəti, protokol heyətinin üzvləri və iş adamları, qeyri-hökumət təşkilatları nümayəndələri, Heydər Əliyev Fənn Liseyi idarəçiləri, Aralıq Dilucu Peşə və Texniki Anadolu Liseyinin idarəçiləri, şagirdləri, dərnək başçıları, iqdırlılar, ölkəmizi bu bölgədə təmsil edən ziyalılar, elm və mədəniyyət xadimləri, QHT və KİV təmsilçiləri, Türkiyə ictimaiyyətinin tanınmış nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə Xocalı şəhidlərinin ruhuna "Qurani-Kərim"dən ayələr oxunub.

Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyevin, 15 İyul – Şəhid və Qazi Ailələri Sosial Yardımlaşma və Həmrəylik Dərnəyinin sədri Qənbər Gözəlqayanın, Aralıq bölgəsinin kaymakamı Kemal Durunun çıxışları olub.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı beynəlxalq hüququn bütün norma və prinsiplərinin heçə sayıldığını və nəticədə, bu soyqırımın təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyət əleyhinə törədilmiş ən ağır insanlıq cinayəti olduğunu ifadə edən çıxış edənlər bildiriblər ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifə kimi daxil olub.

Daha sonra Ermənistanın ölkəmizə və xalqımıza qarşı apardığı işğalçılıq və etnik təmizləmə siyasətindən, onun ağır nəticələrindən bəhs edilib, soyqırımın insanlığa sığmayan hərəkət olduğu vurğulanıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni silahlı qüvvələrinin dinc azərbaycanlılara qarşı misligörünməmiş soyqırımı törətdiyi diqqətə çatdırılıb. Bildirilib ki, keçmiş SSRİ ordusunun 366-cı motoatıcı alayının köməyi ilə erməni silahlı qüvvələrinin Xocalıda törətdikləri kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq olmaqla, 613 dinc sakin qətlə yetirilib, 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb, 197 nəfər itkin düşüb.

Nuru Quliyev Xocalı soyqırımının əsl mahiyyətinin üzə çıxarılmasında və dünya ictimaiyyətinə çatdırılmasında ümummilli lider Heydər Əliyevin rolunu xüsusi qeyd edib, 1994-cü ilin fevralında Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımına hüquqi-siyasi qiymət verdiyini diqqətə çatdırıb. Baş konsul vurğulayıb ki, Xocalı soyqırımını törədənlər cinayət məsuliyyətinə cəlb olunaraq beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verməlidir.

*Fevralın 25-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə anım tədbiri keçirilmişdir.*

## Təbrizdə Xocalı soyqırımının 25-ci ildönümü münasibətilə tədbir keçirilib



***Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.***

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək demişdir ki, təcavüzkar Ermənistan 1992-ci il fevralın 26-da qədim tarixə malik olan Xocalı şəhərini yerlə yeksan etmiş, qadın, qoca və uşaqlar vəhşicəsinə öldürülmüş, Xocalıdakı tarixi abidələr məhv edilmişdir. Soyqırıma ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmiş, Xocalı həqiqətləri dünya ictimaiyyətinə çatdırılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Xocalı soyqırımının tanınması istiqamətində görülən işlərdən danışan Baş konsul qeyd etmişdir ki, Azərbaycan dövlətinin məqsədyönlü xarici siyasəti nəticəsində dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar soyqırımı tanımışdır.

Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu Çağlar Fahri Çakıralp Xocalı soyqırımı barədə çıxış etmişdir.

Çıxışlardan sonra Xocalı soyqırımının dəhşətlərindən bəhs edən film nümayiş etdirilmiş, mərasim iştirakçılarına Xocalı faciəsindən bəhs edən videomateriallar, kitab, jurnal və bukletlər paylanılmış, soyqırıma həsr olunmuş fotostendə baxış olmuşdur.

Mərasimdə İran İslam Respublikasının Şərqi Azərbaycan Valiliyinin rəsmi şəxsləri, Təbriz Şəhər İcra Hakimiyyəti başçısının müavini Səid Bərzigər, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Ərdəbil vilayətindəki nümayəndəliyinin rəhbəri Yəzdan Mələkan, Türkiyə Respublikasının Təbrizdəki Baş Konsulluğunun işçiləri, kütləvi informasiya vasitələrinin əməkdaşları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

*Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2017-ci ilin fevral ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.*

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 fevral tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi və onların hərəkətinə xüsusi icazənin verilməsi Qaydası"nın, "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri"nin və "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"nin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 avqust tarixli 59 nömrəli qərarında və "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 dekabr tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Xarici donorlar tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda dəyişikliklər edilmişdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 fevral tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikası vergi orqanlarının büdcədənkənar fondunun formalaşdırılması və onun vəsaitlərindən istifadə Qaydası"nda dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 15 fevral tarixli qərarı ilə isə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında dəyişikliklər edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 fevral tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında 2017-ci il 1 yanvar vəziyyətinə torpaqların növləri, istifadəçiləri və mülkiyyətçiləri üzrə torpaq balansı" təsdiq olunmuşdur.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

# 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən yeni kitablar nəşr olunmuşdur













*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsi olaraq alim və tədqiqatçılar, eləcə də yaradıcı insanlar üçün hərtərəfli şərait yaradılmış, müasir nəşriyyat və mətbəələr istifadəyə verilmişdir. Yaradılan şərait imkan verir ki, hər il muxtar respublikada onlarla kitab nəşr olunsun. Naxçıvanın qədim tarixi, zəngin mədəni irsi, görkəmli şəxsiyyətləri və müasir sosial-iqtisadi inkişafı barədə yeni kitabların nəşri diqqətdə saxlanılır, hər il üçün nəşr planı tərtib olunur. Bu sahədə görülən işlər 2016-cı ildə də davam etdirilmiş, Ali Məclis tərəfindən 14 kitab nəşr olunmuş, 6 sənədli televiziya filmi çəkilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamına uyğun olaraq xalqımızın əyilməzlik rəmzi olan "Əlincəqala" tarixi abidəsi bərpa olunmuşdur. Sərəncama uyğun olaraq bərpa zamanı qalada geniş elmi-tədqiqat işləri də aparılmışdır. Bu elmi tədqiqatların nəticəsi olaraq Azərbaycan tarixində xüsusi yeri və mövqeyi olan Əlincəqala haqqında Azərbaycan, rus və ingilis dillərində hazırlanan "Əlincəqala" kitabı çap olunmuşdur. Kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamı ilə açılır. Giriş, 13 məqalə, nəticə, ədəbiyyat siyahısı və 44 fotoşəkildən ibarət olan kitabda Əlincəqalada aparılan təmir-bərpa işləri, tarixi mənbələrdə Əlincəqala haqqında verilən məlumatlar, Əlincə sözünün etimologiyası, "Kitabi-Dədə Qorqud" dastanında Əlincəqala ilə bağlı yer alan faktlar, Əlincəqala müdafiəçilərinin Əmir Teymura qarşı müqaviməti, qala rəisləri, qalanın Səfəvilər dövründəki vəziyyəti, memarlıq xüsusiyyətləri və müdafiə sistemi, hidrotexniki qurğuları, Əlincəqalada tapılan numizmatik materiallar, xalq yaddaşında Əlincəqala ilə əlaqədar yaşayan məlumatlar, qala ətrafında olan epiqrafik, tarix və memarlıq abidələri haqqında məqalələr toplanmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Çingiz Qacarın ötən il rus dilində nəşr edilmiş "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" adlı kitabı indiyə qədər Naxçıvanın tədqiqi sahəsində əldə edilmiş elmi nailiyyətlərin populyarlaşdırılması və dünyada təbliği baxımından çox önəmlidir. Elmi redaktoru və ön söz müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli olan kitab tarixi, etnoqrafik və mədəniyyət sahəsində məlumatları özündə cəmləşdirib. Müəllifin özünün də qeyd etdiyi kimi, əsər elmi-tədqiqat əsəri xarakterində yox, təbliğat və tanıtım məqsədlidir. Elə bu səbəbdən də kitabda təqdim olunan materiallar gələcəkdə daha geniş elmi tədqiqatlara cəlb edilə bilər.

Muxtar respublikada beynəlxalq rəsm festivallarının keçirilməsi ənənə halını almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən 2016-cı il mayın 26-da Naxçıvanda üçüncü beynəlxalq rəsm festivalı keçirilib. Festival çərçivəsində Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılması, eləcə də festivalın "Əlincəqala" tarixi abidəsində keçirilməsi tədbirin əhəmiyyətini artırıb, iştirakçıların dəyərli əsərlər yaratmasına səbəb olub. Bu əsərlərdən ibarət olan "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının albom-kataloqu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə nəşr edilib. Nəfis tərtibatda hazırlanan kataloqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəssamlar Parkının yaradılması haqqında" Sərəncamı, parkın açılışı zamanı etdiyi dərin məzmunlu çıxışı, tədbirdən çəkilmiş fotoşəkillər, eləcə də festivalda iştirak edən 52 rəssam haqqında qısa bioqrafik məlumatlar yer alıb, festivalda çəkilmiş rəsm əsərləri verilib.

"Naxçıvan Muxtar Respublikasının yubileyləri 1924-1984" kitabı da 2016-cı ildə nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanan kitabda muxtar respublikanın yaranmasının 25, 40, 50 və 60 illik yubileyləri ilə əlaqədar materiallar toplanıb. Beş bölmədən ibarət olan kitabın ilk bölməsində Naxçıvan Muxtar Respublikasının yaradılmasına dair müxtəlif tarixi və arxiv sənədləri yer alıb. Bu bölmədə 26 fevral 1923-cü ildən 15 fevral 1926-cı ilə qədər olan dövrü əhatə edən 7 tarixi sənəd elmi ictimaiyyətin və geniş oxucu kütləsinin diqqətinə təqdim olunur. Kitabın digər bölmələri də kifayət qədər zəngin tarixi sənədlər və fotoşəkillərlə diqqəti cəlb edir. Ümummilli lider Heydər Əliyevin Naxçıvana xüsusi qayğısını, Sovetlər Birliyi dövründə muxtar respublikanın yubiley tədbirlərində iştirakı və çıxışlarını əks etdirən nadir sənəd və fotoşəkillər kitabın əhəmiyyətini daha da artırır.

Nəşr olunan kitablar arasında təhlil və analitik materiallar da diqqəti cəlb edir. "Naxçıvan Muxtar Respublikası müstəqillik illərində" kitabında muxtar respublikanın son illər keçdiyi sürətli inkişaf yoluna nəzər salınır. Naxçıvanın müasir inkişafını əks etdirən fotoşəkillərin də yer aldığı kitabda sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan nailiyyətlər, əldə olunan uğurlar barədə geniş oxucu kütləsinə məlumat verilir, statistik müqayisələr və təhlillər aparılır.

2016-cı ildə işıq üzü görən "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" kitabında Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan bəstəkarların uşaqlar üçün bəstələdikləri mahnılar yer alıb. Kitabdakı mahnılar naxçıvanlı şairlərin sözlərinə bəstələnmişdir. Bu mahnılar uşaqlarda Vətənə, doğma elobaya sevgi, məhəbbət hissləri aşılamaqdadır. "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" kitabı muxtar respublikada mədəniyyətin inkişafı, xüsusilə də elmi və mədəni dəyərə malik nəşrlərin çap olunması sahəsində görülən işlərin daha bir nümunəsidir.

"Naxçıvan dünya mətbuatında" kitabında muxtar respublikaya səfər edən ictimai və elm xadimlərinin, jurnalistlərin bu diyar haqqında qələmə aldıqları məqalələr və onlarla aparılan müsahibələr toplanılıb. Kitab "Naxçıvan dünya mətbuatında" və "Naxçıvan xarici qonaqların gözü ilə" fəsillərindən ibarətdir.








Naxçıvanlı şairlərin Əlincəqala haqqında qələmə aldıqları şeir, poema və pyeslərdən ibarət "Əlincəqala" kitabı, "2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarının xülasəsi", eləcə də "Naxçıvan" jurnalının "Naxçıvan qalaları: tarixdə və günümüzdə" beynəlxalq konfransının materialları əsasında hazırlanan, Naxçıvan haqqında yazılmış şeirlərdən və Eynəli bəy Sultanovun 150 illiyinə həsr olunmuş materiallardan ibarət xüsusi nömrələri də ötən il çap olunan dəyərli nəşrlərdəndir.

**"Şərq qapısı"**

# AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası keçirilib



***AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclasını giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" ikicildliyinin birinci cildinin hazırlanması istiqamətində görülən işlərlə əlaqədar tədbir iştirakçılarına məlumat verib. Bildirib ki, artıq birinci cild üzərində işlər İşçi qrupu tərəfindən başa çatdırılıb, bu günlərdə kitabın ikinci cildinin hazırlanması işlərinə başlanılacaq.***

İclasda AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun elmi katibi, kimya elmləri üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevin "Darıdağ sürmə filizinin kompleks emalı" mövzusunda elmi məruzəsi dinlənilib. Məruzədə Naxçıvan Muxtar Respublikasının Culfa şəhərindən şimala doğru 9 kilometr məsafədə yerləşən Darıdağ sürmə filiz yatağından, sürmə filizi əsasında aparılan təcrübələrdən, onların nəticələrindən bəhs olunub. Məruzə dinlənildikdən sonra rəyasət heyətində müzakirə olunub və gələcəkdə aparılacaq tədqiqatların elmi səmərəliliyini yüksəltmək üçün müvafiq tapşırıqlar verilib.

Tədbirdə bölmənin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əkrəm Hüseynzadə "Dədə Qorqud yurdu – Naxçıvan" tarix və etnoqrafik atlasının hazırlığı barədə rəyasət heyətinin üzvlərinə məlumat verib. Bildirib ki, artıq sözügedən atlas hazırdır və sonuncu baxışdan keçirilir.

Daha sonra AMEA Naxçıvan Bölməsində akademik Həsən Əliyevin və professor Məmmədhüseyn Təhmasibin 110 illik yubileyləri ilə əlaqədar tədbirlərin keçirilməsi barədə qərar qəbul edilib.

Gündəlikdəki növbəti məsələ AMEA Naxçıvan Bölməsinin bir sıra institutlarında yeni işə götürülən əməkdaşların tədqiqat işlərinin planlarının təsdiq edilməsi barəsində olub. Məsələ ilə bağlı bölmənin Elmi-təşkilat şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov məlumat verib. Tədqiqat işlərinin planları ilə tanış olduqdan sonra mövzular ətrafında fikir mübadiləsi aparılıb. Yeni işə götürülən gənc kadrlara təqdim olunan mövzular müzakirə olunaraq rəyasət heyətinin qərarı ilə təsdiq edilib.

İclasda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinə ictimai əsaslarla rəhbərlik edən elmi işçi Elxan Məmmədov rəyasət heyətinin qərarı ilə həmin şöbənin müdiri, Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin elmi işçisi Seyfəli Qəhrəmanov isə böyük elmi işçi vəzifələrinə təyin olunublar.

Sonda cari məsələlər müzakirə olunub. Bölmənin İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar və Təbii Ehtiyatlar İnstitutunun əməkdaşlarının hazırladıqları kitablar rəyasət heyətinin üzvlərinə təqdim edilib. Müzakirələrdən sonra 11 kitab və monoqrafiyanın bəzilərinin adlarında dəyişiklik edildikdən sonra onların nəşrinə icazə verilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Muxtar respublikada əhalinin dinamik artımı davam edir



*Muxtar respublikada əhalinin səmərəli məşğulluğu, həyat və məişət şəraitinin yaxşılaşdırılması üzrə keçirilən tədbirlər demoqrafik proseslərə müsbət təsir göstərmiş, əhali artımının dinamikliyi təmin edilmişdir.*

Muxtar respublikada 1 yanvar 2017-ci il tarixə əhalinin sayı bir il öncəyə nisbətdə 4 min 720 nəfər artaraq 449 min 143 nəfər təşkil etmişdir. Hazırda muxtar respublika əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 82 nəfər olmuşdur ki, bu da 1 yanvar 1996-cı illə müqayisədə 21 nəfər çoxdur.

1995-ci ilin sonu ilə müqayisədə əhalinin sayı 111,3 min nəfər artmışdır. Son 22 il ərzində muxtar respublikada 65,1 min nikah bağlanmış, 160 min uşaq doğulmuşdur.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların sayını aşağı salmışdır. Əgər 1995-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfəri hesabı ilə 6 nəfər olmuşdursa, hazırda bu göstərici 4,1 nəfər təşkil edir. Hər min nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər qeydə alındığı halda, 2016-cı ildə bu göstərici 1,5 nəfər təşkil etmişdir.

Doğumun dinamik artımı muxtar respublika əhalisinin sayında gənclərin ümumi sayının artmasına müsbət şərait yaratmışdır. Əgər 1995-ci ildə gənclərin sayı ümumi əhalinin 22 faizini təşkil edirdisə, 1 yanvar 2017-ci il tarixə bu göstərici 30,8 faizə çatmışdır. 1995-ci illə müqayisədə gənclərin sayı 64 min nəfər artaraq 138 min nəfərdən artıq olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Naxçıvanda müasir rabitə sistemi yaradılıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2004-cü il 28 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradılmışdır. Ali Məclis Sədrinin 2014-cü il 19 sentyabr tarixli Fərmanına əsasən isə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılmış, nazirliyin səlahiyyətləri daha da genişləndirilmişdir.*

Rabitə və informasiya sistemlərinin inkişafı və yeni texnologiyaların tətbiqi məqsədilə reallaşdırılmış məqsədyönlü tədbirlər muxtar respublikanın hazırkı sosial-iqtisadi inkişafında bu sahənin rolunu daha da artırmışdır. Son 13 ildə muxtar respublikada əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, bu sahədə mühüm irəliləyişlər əldə olunmuşdur. Rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan avtomat telefon stansiyaları müasir tələblərə cavab verən yeni rabitə sistemi ilə əvəz olunmuş, ən ucqar dağ kəndində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir.

Muxtar respublikada Yeni Nəsil Texnologiyaların tətbiqi ilə əlaqədar nəzərdə tutulan 4 mərhələdən ibarət layihənin 3-ü artıq başa çatdırılmışdır. Belə ki, 4-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən NGN avadanlıqları istifadəyə verilmiş, telekommunikasiya şəbəkəsi üzrə sabit telefon nömrələri 7 rəqəmli nömrə planına keçirilmişdir. Hazırda istifadə olunan avtomat telefon stansiyalarının 66 faizini yeni nəsil texnologiyalar təşkil edir.

Yeni optik kabel magistrallarının tikintisi böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə imkan verir. Ötən müddət ərzində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, Naxçıvanın tranzit telekommunikasiya imkanları genişlənmişdir. 2013-2014-cü illərdə muxtar respublikanın telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi üçün ümumi uzunluğu 242 kilometr olan Sədərək-Ordubad arası fiber-optik kabel magistral xəttinin tikintisi başa çatdırılmışdır. Hazırda muxtar respublikada fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1500 kilometrə yaxındır. Bu da muxtar respublikada rabitə əlaqələrinin kəsintisiz həyata keçirilməsində, elektron hökumət, genişzolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin icrasında əvəzsiz rola malikdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, "Evədək optika" layihəsinin icrasına başlanmışdır.



Muxtar respublikada rabitə sahəsindəki sürətli inkişaf, fiber-optik kabel xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaratmışdır. Hazırda "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti bir mərkəzi, yeddi filial və 163 poçt bölməsi ilə muxtar respublikada müasir poçt xidmətləri təqdim edir. Poçt məntəqələrində ənənəvi poçt xidmətləri ilə yanaşı, bütün növ xidmət haqlarının yığılması da təmin edilmişdir. Hazırda muxtar respublikada, ümumilikdə, 149 poçt məntəqəsi avtomatlaşdırılmış, onlara 154 ədəd POS-terminal qurulmuşdur. "Naxçıvanpoçt" MMC-nin kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılması həyata keçirilir. Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının SMART sayğaclarla dəyişdirilməsi ilə poçt bölmələrində həmin kartların yüklənməsi işinin təşkili üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qurulmuş, Naxçıvan şəhərindəki poçt bölmələri yeni kompüter və kart oxuyucular ilə təmin edilmişdir.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə tələbatı da artırmışdır. Bu tələbatı ödəmək məqsədilə "Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi" yaradılmış, "Naxçıvanpoçt" MMC-nin rayon filiallarında elektron imza kartının verilməsi təşkil edilmişdir. Bu ilin əvvəlində "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində "İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" fəaliyyətə başlamışdır. "İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" üçün "Naxçıvanpoçt" MMC-nin *www.naxcivanpoçt.az* internet saytında xüsusi bölmə yaradılmış, 225 qaynar xətti istifadəyə verilmişdir.

Ötən dövrdə İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin maddi-texniki bazası daha da möhkəmləndirilmiş, muxtar respublikanın internet resurslarının genişlənməsi ilə əlaqədar əlavə server avadanlıqları və irihəcmli məlumatların qəbulu və paylanması üçün şəbəkə avadanlıqları alınmışdır. Həmçinin İP ünvanların çatışmazlığı aradan qaldırılmış, Türkiyə Respublikasının "Türk Telekom" şirkəti ilə əməkdaşlıq protokolu imzalanmış və Türkiyə istiqamətində əlavə fiber-optik kabel xətti çəkilmişdir. Hazırda muxtar respublikaya daxil olan internet kanalının həcmi 8 Gigabit/saniyədir. Bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə mobil internet xidmətləri göstərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar "Elektron hökumət" portalı üzərindən rabitə və internet xidmətləri, elektrik enerjisi, qaz və sudan istifadə haqlarının onlayn rejimdə ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda qeydiyyatdan keçməsi avtomatlaşdırılmış və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür. "Bir pəncərə" prinsipi əsasında dövlət orqanlarının xidmətləri portala inteqrasiya edilmişdir. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 80-dən artıq dövlət təşkilatına və 12 idman federasiyasına elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. "Elektron hökumət" portalında mütəmadi olaraq müraciət edilən dövlət orqanlarının saytlarında elektron müraciət səhifələri yenilənmiş, müraciətlərin və cavablandırılan məktubların elektron arxiv sistemi yaradılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasında Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istismara verilmişdir. Bunun üçün idarələr arasında qapalı şəbəkə qurulmuş, mərkəzi server avadanlıqları alınmış və müvafiq proqram təminatı hazırlanmış, 81 təşkilatın sistemə qoşulması təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada elektron təhsil infrastrukturunun yaradılması və təhsildə yeni texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Son illər bu istiqamətdə işlər daha da genişləndirilmiş, əsaslı təmir edilən və yeni istifadəyə verilən təhsil müəssisələrində kompüter dəstləri quraşdırılaraq internetə qoşulması təmin edilir. Həmçinin təhsil müəssisələri arasında interaktiv əlaqənin təmin edilməsi üçün distant təhsil sistemi yaradılmış, internet üzərindən interaktiv dərslərin keçilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin saytında elektron təhsil xidməti istifadəyə verilmiş, orta ixtisas və ümumtəhsil məktəblərinin iştirakı ilə distant dərslərin keçilməsinə başlanmışdır. Hazırda muxtar respublika üzrə 236 təhsil müəssisəsi və 16 muzey distant təhsil sisteminə qoşulmuşdur. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində də Distant Tədris Mərkəzi yaradılmış, elektron kitabxana və "258" telefon xidməti üzərindən fəaliyyət göstərən audiokitabxana yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasındakı ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilmişdir. Ötən dövrdə nazirlik tərəfindən "Naxçıvan" Universitetində informasiya-kommunikasiya texnologiyaları mərkəzi yaradılmış, Naxçıvan Dövlət Universitetində daxili telekommunikasiya şəbəkəsi, simsiz internet sistemi, universitet televiziyası və radiosunun montaj-tənzimləmə işləri, təlim üçün avtomat telefon stansiyası, Texniki Kollecdə isə kompüter şəbəkəsi və 5 tədris sinfi qurulmuş, Naxçıvan Dövlət Texniki Kolleci və Şərur rayonundakı Fizika-Riyaziyyat Təmayüllü Liseyin hər birinə bir ədəd interaktiv rəqəmsal lövhə quraşdırılmışdır. Ötən il nazirliyin dəstəyi ilə informasiya texnologiyaları üzrə təhsil alan 6 tələbənin Çin Xalq Respublikasının "Huawei" şirkətinin Şenjen şəhərindəki Yay Təlim Mərkəzində istehsalat praktikasında iştirakı təmin edilmişdir.

Müasir texnologiyaların tətbiqi muxtar respublika ərazisində rəqəmsal radio-televiziya yayımının təşkilinə də əsaslı zəmin yaratmışdır. 2014-cü ilin dekabr ayından analoq televiziya yayımı dayandırılmış, 6 güclü və 44 azgüclü verici stansiya vasitəsilə muxtar respublika ərazisində rəqəmsal televiziya yayımına keçid təmin edilmişdir. Hazırda bütün yaşayış məntəqələrində 12 televiziya və 9 radionun rəqəmsal yayımı təmin edilmişdir. Bundan başqa, Duzdağ Radio-Televiziya Verici Stansiyasında qurulan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya vericisi vasitəsilə Cənubi Qafqazda ilk dəfə olaraq DVB-T2 standartında 67 televiziya kanalının yayımına başlanılmış, Naxçıvan Dövlət Televiziyasının yüksəkkeyfiyyətli HD formatda efirə çıxışı təmin edilmişdir.

Naxçıvanda rabitə və yeni texnologiyaların inkişafı sahəsində görülən işlərin davamı olaraq 2016-cı il oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə 4-cü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. 4-cü nəsil mobil rabitə sistemi məlumatların alınması və ötürülməsi üçün özündən əvvəlki sistemlərlə müqayisədə daha yüksəksürətli və genişzolaqlı şəbəkələrə çıxış imkanına malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

*Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi və inkişafı istiqamətində işlər bundan sonra da davam etdiriləcək, əhaliyə keyfiyyətli poçt-rabitə xidmətləri göstəriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Torpaq mülkiyyətçiləri kənd təsərrüfatı texnikaları və gübrələrlə təmin olunurlar

***Muxtar respublikamızda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi prioritet vəzifələrdən biridir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin həcmi və coğrafiyası getdikcə genişlənir. Qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin də üzərinə mühüm vəzifələr düşür. Torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları, gübrə ilə təminatında bu qurum başlıca rol oynayır.***

Cəmiyyətin və onun rayon filiallarının bazalarında olan mövcud texnikalar kənd təsərrüfatı sahəsində bütün aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Hər il muxtar respublikaya yeni texnikaların gətirilməsi, əkin sahələrinin gübrələrlə təmin olunması da diqqət mərkəzində saxlanılır.



Cəmiyyət 2016-cı ildə də öz fəaliyyətini uğurla davam etdirib, muxtar respublikaya traktor, kotan, otbiçən və digər kənd təsərrüfatı texnikaları olmaqla, 66 texnika gətirilib. Bəhs olunan dövrdə torpaq mülkiyyətçilərinə 4 min 905 ton gübrə verilib. 2017-ci ili də uğurla başa vurmaq üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərilir. Qeyd edək ki, ilin ilk 2 ayı ərzində 170 ədəd yeni texnika gətirilib, yaz əkinləri üçün torpaq mülkiyyətçilərinə 50 min tona qədər gübrə verilib.

Məlumat üçün bildirək ki, məhsul istehsalçılarına lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı hökumət tərəfindən əlavə güzəştlər müəyyən edilib. Belə ki, ilkin mərhələdə 20 faizi ödənilmək şərti ilə onlara texnikanın ümumi balans dəyərinin 40 faizi məbləğində güzəştlər tətbiq olunur. Qeyd edilən güzəştlər əvvəlki dövrlərdə satılmış kənd təsərrüfatı maşın və mexanizmlərinə də şamil edilir. Bütün bunlar isə insanların torpaqlardan səmərəli istifadəsinə, nəticə etibarilə, muxtar respublika sakinlərinin ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaradır.

***Muxtar respublikamızın tarixini özündə yaşadan, içməli və suvarma suyuna olan tələbatın ödənilməsində mühüm rol oynayan kəhrizlərin qorunub saxlanılması, təmir-bərpası mühüm əhəmiyyətli sahə kimi daim diqqət mərkəzindədir. Yeraltı suları yer səthinə çıxarmaq üçün istifadə olunan qurğulardan – kəhrizlərdən istifadə iqtisadi baxımdan daha səmərəlidir. Ona görə ki, heç bir elektrik enerjisi sərf edilmədən əhali öz axarı ilə fasiləsiz olaraq içməli və suvarma suyu ilə təmin olunur.***

## Kəhrizlərin təmir-bərpası diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Kəhrizlər İdarəsindən verilən məlumata görə, 384 kəhrizin qeydiyyata alındığı muxtar respublikamızda istifadə olunan kəhrizlərin qorunub saxlanılması və təmir-bərpası ötən il də diqqət mərkəzində saxlanılıb. Şərur rayonunun Tənənəm, Babək rayonunun Kültəpə, Kəngərli rayonunun Xıncab, Təzəkənd, Qarabağlar, Çalxanqala, Yurdçu, Culfa rayonunun Yaycı, Xoşkeşin, Şurud, Ordubad rayonunun Yuxarı Əylis, Anabad kəndlərində və Naxçıvan şəhərində olmaqla, ümumilikdə, 15 kəhriz əsaslı təmir olunub. Həmçinin Naxçıvan və Ordubad şəhərlərində, Ordubad rayonunun Aşağı Əylis, Şahbuz rayonunun Şahbuzkənd, Culfa rayonunun Gal, Kəngərli rayonunun Qarabağlar kəndlərində, ümumilikdə, 9 kəhrizdə cari təmir işləri aparılıb.

Təmir-bərpa işləri zamanı kəhriz kürələrində saybəndləmə, quyularda isə çalagərdən hörgü işləri görülür ki, bu da kəhrizlərin istismar müddətinin artırılmasına, uçqunların qarşısının alınmasına, bir sözlə, tariximizi özündə yaşadan bu tarixi abidələrin qorunub saxlanılmasına imkan verir. Cari ildə də kəhrizlərin təmir-bərpası diqqət mərkəzindədir. Ordubad rayonunun Aşağı Əylis kəndində "Bazarçeşmə" kəhrizi əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda Culfa rayonunun Dizə, Ordubad rayonunun Yuxarı Əylis, Kəngərli rayonunun Çalxanqala, Xıncab, Qarabağlar kəndlərində, ümumilikdə, 4 kəhrizdə əsaslı, Ordubad şəhərindəki "Şıxalixan" kəhrizində isə cari təmir işləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

Xalq təqvimi

# Bu gün torpaq çərşənbəsidir

***Kiçik çillə ilə Novruz bayramı arasındakı boz ay qışdan yaza keçid dövrünü əks etdirir. Xalq arasında boz aya “bayram ayı”, “ağlar-gülər ay” da deyilir. Bu ayda olan dörd çərşənbənin hər biri öz mərasim və ayinlərinin zəngin və təmtəraqlı olması ilə seçilir. Bunlar arasında torpaq çərşənbəsinin özünəməxsus yeri vardır.***

Azərbaycan bir çox xalqların yaşadığı ölkədir. Bir sıra tədqiqatçıların araşdırmalarından və bizim də topladığımız etnoqrafik materiallardan aydın olur ki, çərşənbələrə ad olaraq su, od, yel, torpaq yarlıqlarının yapışdırılmasının “abi-ataş-badi-xak” gücüylə olmasına başqa bir sübut da var. Çərşənbə adlarının sırası fars dilindəki sözlərə (abi-ataş-badi-xak və yaxud da abi-ataş-xaki-bad) uyğun şəkildə deyilir. Amma bu fikrin tərəfdarları astronomiyadan, eləcə də təbiət qanunlarından xəbərdar olsaydılar, onda bilərdilər ki, çərşənbədə dirilmə, canlanma nələrdən əvvəl və ya nələrdən sonra gəlir. Bilərdilər ki, suyun şaxı sınmayıbsa, içində su donan torpağın donu açılmaz. Bilərdilər ki, sonuncu çərşənbədə alışdırılan od, tonqal bütün canlıların canlanması, dirilməsi şərəfinədir. Onda heç olmazsa, zorla təbliğ olunan yanlış çərşənbə adlarının sıra düzümü təbiət qaydalarına uyğun gələrdi.



Boz ayın ikinci çərşənbəsi xalq arasında “xəbər çərşənbə”, “külə çərşənbə” kimi bilinən torpaq çərşənbəsidir. Buna xalq arasında bəzən “üsgü çərşənbə”, “ikinci çərşənbə” və “yer çərşənbə” də deyilir. İkinci çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması baş verir ki, bu, “xəbər çərşənbə” adlanır. Bu çərşənbədə havalar qızır, Günəş artıq yeri isitməyə başlayır və torpaq oyanır. Bundan əlavə, bu çərşənbəyə həm də “külə çərşənbə” deyilib. Bu çərşənbə tam deyil, yarımçıqdır, yəni külədir.

Bu çərşənbədə torpaq oyanır və əkinə hazır olduğu görünür. Torpaqdan otlar baş qaldırır. El arasında deyərlər ki, “Cəmrə torpağa düşür”, torpaqdan buxar qalxır, deməli, torpaq isinib, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yavaş-yavaş əkilməlidir. Xalq arasında olan inama görə, bolluq, bərəkət rəmzi olaraq torpaq çərşənbəsində torpağa buğdadan toxum qoyulmalıdır. Evlərdə səməni elə bu çərşənbədən qoyulmalıdır ki, axır çərşənbəyə hazır olsun.

Ədəbiyyat materiallarında qeyd edilir ki, erkən orta əsrlərdə Azərbaycanda əkinçiliklə əlaqəli “İsfəndəkan” adlı bayram keçirərdilər. Sonralar bu bayram “torpaq çərşənbəsi” adlandırıldı. Bu çərşənbədən başlayaraq artıq çay, bulaq kənarlarında yarpız görünməyə başlayır. Həyət-bacada əsaslı işlərə başlanılır. Bağ-bağata əl gəzdirilir, həyət-baca səliqə-sahmana salınır. Bağ-bağatda ağacların qol-budağı budanır, artıq nə varsa yandırılır, ağacların dibi bellənir.

Torpaq insanları yaşayış üçün zəruri olan qida ilə təmin edən real həyati varlıqdır. Qədim dövrdən günümüzədək torpaqla bağlı el arasında müxtəlif deyimlər olub:

*Torpağa xor baxsan, o, sənə kor baxar.*
*Torpaq deyər: öldür məni, dirildim səni.*
*Torpağa göz ağardanda üz ağardar.*
*Torpaq ovuclayan qızıl ovuclar.*
*Torpaq deyər: sən mənə tər ver, mən sənə zər verim.*

Bu tipli saysız-hesabsız folklor nümunələrimizin də məğzində torpağın bir yaradıcı ünsür kimi insanın yaşayışı və fəaliyyəti üçün əsas stimulverici güc olduğu dayanır. Bütün bunlar torpağın real həyatla, gündəlik məişətimizlə bağlı olduğunu bir daha göstərir.

**Asəf ORUCOV**
*tarix üzrə fəlsəfə doktoru*

# Açıq internet ensiklopediyasında Naxçıvan barədə təhrif olunmuş məlumatlar yerləşdirilib

## *Təəssüf ki, bunun qarşısının alınmasına hələ də laqeyd yanaşırıq*

*“Qadanız mənə gəlsin, bu qədər “balıx-balıx” deyə-deyə pəs niyə o gözəl sirkəni qoydunuz orda qaldı və ağzını heç açmadınız da?*

*Nənənin bu sözü bizi deyəsən yuxudan oyatdı; bir də baxaq ki, doğrudan da “balıq”nan “balıx” sözlərinin mübahisəsinə biz dörd nəfər ədib elə bərk qızışmışıq ki, on iki girvənkə balığı yeyib qurtarana kimi o gözəl sirkə ağzı tıxaclı dəc qalıb stolun üstündə; bir surətdə ki, haman sirkəni dördümüz də tamam yarım saat gözlədik ki, bazardan gəlsin”.*





Allah sənə rəhmət eləsin, Mirzə Cəlil. Sən elə böyük yazıçısan ki, hər cümlən, hər sözün bu gün də aktualdır. Hansı mövzudan yazmaq, nədən bəhs etmək istəsək, dönüb-dolaşıb yenə sənin üstünə qaçırıq.

Bu yaxınlarda bir internet saytında Naxçıvan barədə yerləşdirilən məlumatlarla tanış olarkən Cəlil Məmmədquluzadənin “Sirkə” hekayəsi yadıma düşdü. Bəli, bu gün bəzilərimizin başı lazımsız şeylərə elə bərk qarışıb ki, düşmən bundan “səmərəli” istifadə edərək öz təbliğatını daha da genişləndirib.

Doğrudur, son vaxtlar internet saytlarında, sosial şəbəkələrdə Naxçıvanın turizm potensialının təbliği ilə bağlı görülən işlər təqdirəlayiqdir. Ancaq, təəssüf ki, yenə bəzilərimiz bir neçə şəkil paylaşmaqla bu sahədəki missiyamızı bitmiş hesab edirik. Həmin şəkilləri də ki, yalnız özümüz görürük. Bəs xarici dillərdə Naxçıvanı necə təbliğ edirik? Dünyanın ən geniş informasiya şəbəkəsi olan internetə baxdıqda Naxçıvan barədə xarici dillərdə yerləşdirilmiş materialların çox az olduğunu görürük. Dünya inkişaf edir. Bəzi ölkələr məhz təbliğat hesabına üst-üstə qoyulmuş üç daş parçasını belə, YUNESKO-nun dünya mirası siyahısına salmağa çalışırlar. Biz isə dünyada bənzəri olmayan abidə və qalalarımızın, təbiət guşələrimizin, xalq sənətkarlığı nümunələrimizin sanki dil açıb özünü təbliğ edəcəyini gözləyirmiş kimi hələ də passiv mövqe tutmaqdayıq. Müasir texnologiya və Naxçıvanda yaradılmış şərait hər bir muxtar respublika sakininə bu sahədə öz vətənpərvərlik borcunu yerinə yetirməyə imkan verir.

Bu gün Google kimi beynəlxalq axtarış saytlarında ingilis dilində Naxçıvan yazıb axtarış aparanda, qarşımıza hansı məlumat çıxır? İlk qarşımıza çıxan Wikipedia.org saytıdır ki, kaş çıxmayaydı.

*Wikipedia.org*-da Naxçıvanla bağlı yerləşdirilən informasiyaları təhlil etməmişdən öncə bu sayt barədə oxucularımıza qısa məlumat verək.

Vikipedia açıq internet ensiklopediyasıdır. Bu internet ensiklopediyasının 290 dildə versiyası vardır. Vikipedianın əsas adminləri və redaktorları Amerika Birləşmiş Ştatlarında, köməkçi adminləri isə Hollandiya, Fransa və Cənubi Koreyada fəaliyyət göstərirlər. Hər bir internet istifadəçisi vikipediada məlumatlar yerləşdirə, həmin məlumatları dəyişdirə bilər. Bu ensiklopediyada müxtəlif dillərdə 20 milyondan çox məqalə yerləşdirilib. Vikipedia dünyada ən çox oxunan saytlardan biridir. Hər ay 500 milyon insan bu saytdan istifadə edir ki, onların da 62 faizi vikipedianın ingilisdilli versiyasına daxil olanlardır.

*“Alexa”* beynəlxalq reytinq saytında vikipedianın ingilis dilində olan versiyası dünya üzrə 6-cı yerdə qərar tutub. Göründüyü kimi, vikipedia dünya əhalisinin ən çox müraciət etdiyi internet saytlarındandır. Ona görə də biz bu açıq internet ensiklopediyasında Naxçıvanla bağlı yerləşdirilmiş məlumatlara ciddi yanaşmalı, qədim diyarımızın tarixinin, mədəniyyətinin, milli dəyərlərimizin düzgün təbliğinə çalışmalıyıq. Vikipedia akademik dairələrdə ciddi elmi mənbə sayılmasa da, bu sayt beynəlxalq ictimai rəyin formalaşdırılmasında mühüm rol oynayır.

İndi isə keçək əsas məsələyə və görək vikipedianın ingilisdilli versiyasında Naxçıvan haqqında hansı məlumatlar var? Elə buradaca qeyd edim ki, 2001-ci ildən fəaliyyət göstərən bu internet ensiklopediyasında Naxçıvan barədə məqalə bizim tərəfimizdən yerləşdirilməyib. Əgər ziyalılarımız, ingilisdilli mütəxəssislərimiz, hansısa dövlət orqanımız internet ensiklopediyasında Naxçıvan haqqında həqiqətləri əks etdirən məlumatlar yerləşdirsəydi, bu gün vikipediada təhrif olunmuş məlumatlar, cəfəng fikirlər qarşımıza çıxmazdı. Bu işdə biz jurnalistlərin laqeydliyini də qeyd etməliyik. Bütün bunların nəticəsidir ki, bu yaxınlarda Naxçıvana gələn bir xarici ölkə vətəndaşı guya dağıdılmış, əsl həqiqətdə isə heç vaxt bu ərazidə olmayan “abidələr”in yerini axtarırdı. Təəssüf ki, o turist həmin məlumatları vikipediadan əldə etmişdi. Təsadüf nəticəsində tanış olduğumuz həmin turistə həqiqətləri əks etdirən ədəbiyyatlar verməklə izah etdik ki, bura əzəli Azərbaycan torpağıdır, onun dediyi “abidələr” bu ərazidə olmayıb.

Bəs vikipediada yerləşdirilən, düşmən ölkənin nümayəndəsi tərəfindən hazırlandığı heç bir şübhə doğurmayan həmin məqalədə Naxçıvan Muxtar Respublikası necə təqdim edilib?

Biz o yalan məlumatları, heç bir əsası olmayan “faktları” geniş şərh etmək fikrindən uzağıq. Əgər kim istəsə, Wikipedia.org saytına daxil olub həmin məqalə ilə tanış ola bilər. Ancaq bəzi məqamları qeyd etməmək mümkün deyil.

Məqalə elə yazılıb ki, ilk baxışdan onun Naxçıvanda yaşayan biri tərəfindən hazırlandığı başa düşülür. Naxçıvanın muxtariyyət tarixi, əhalisi, ərazisi, idarəetmə quruluşu, blokadada yaşadığı barədə məlumatların olduğu yazıda hətta Kərki kəndinin ermənilər tərəfindən işğal olunması faktı da öz əksini tapıb. Ancaq sonrakı bölmələrdə verilən məlumatlar Naxçıvan haqqında təsəvvürü olmayan oxucuda çaşqınlıq yaradır, qədim diyarımızın əzəli Azərbaycan torpağı olduğunu şübhə altına alır. Saxta mənbələrdən gətirilən “faktlar”la sübut etməyə çalışırlar ki, guya biz bu torpaqlara gəlməyik, buranın “əzəli sakinləri” isə ermənilər olublar. Hətta məqalədə yerləşdirilən bir cədvəldə “əsrlər bundan öncə Naxçıvanda yaşayan ermənilərin sayı” barədə saxta rəqəmlər öz əksini tapıb.

Onu da deyək ki, bu məlumatlar hansısa internet istifadəçisi tərəfindən silinə bilməz. Bunun üçün internet ensiklopediyasının redaktorlarına real faktları əks etdirən materiallar göndərməli, buna öz etirazımızı bildirməliyik. Bu sahənin mütəxəssislərinin, elm adamlarının, fəal internet istifadəçisi olan gənclərin, rus və ingilis dillərini bilən vətənpərvər insanların köməyi ilə ermənilərin növbəti dəfə əl atdığı bu saxtakarlıq aradan qaldırılmalıdır. Bu cəfəngiyyat dolu, heç bir tarixi həqiqəti özündə əks etdirməyən məlumatları yalnız vikipedia qrupunun üzvlərinin müdaxiləsi ilə silmək olar. Onlara isə tutarlı dəlillərlə yazılan yazılarla, tarixi həqiqətləri əks etdirən faktlarla, kütləvi şəkildə ictimai etirazla təsir etmək mümkündür. Vətənpərvərlik təkcə silahla düşmənə qarşı vuruşmaq deyil. Biz həm də informasiya müharibəsində düşmənə qalib gəlməliyik. Bu işdə hər birimiz fəallıq göstərməli və vətəndaşlıq borcumuzu yerinə yetirməliyik.

Qeyd edək ki, bu məlumatlar vikipedianın rus dilində olan versiyasında da yerləşdirilib.

**Tural SƏFƏROV**

## Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinə işə qəbul elanı

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi mərkəzi aparatda və struktur qurumlarında adları aşağıda qeyd olunan ixtisaslar üzrə yaşı 30-dək və bu işdə müəyyən təcrübəsi olan şəxsləri hərbi xidmətə və dövlət qulluğuna dəvət edir:

*1. “BC” və “D” kateqoriyalı sürücülər*
*2. Ehtiyatda olan zabitlər*
*3. Kadrlar və kargüzarlıq işinin aparılmasında müəyyən təcrübə keçmiş şəxslər*
*4. Tikinti sahəsi üzrə ali təhsil müəssisələrini bitirmiş və ən azı 3 il iş təcrübəsinə malik mütəxəssislər*
*5. Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi, ətraf mühitin və insanların radiasiya təhlükəsizliyi üzrə mütəxəssislər*
*6. Hüquqşünas*
*7. Həkim və feldşerlər*
*8. Rabitə və informasiya texnologiyaları ixtisası üzrə mütəxəssislər*
*9. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislər.*

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, cinayət törətdiklərinə görə əvvəllər məhkum edilmiş və tibbi rəyə əsasən fiziki və əqli qüsurları olan, Azərbaycan Respublikası Silahlı Qüvvələrindən xidməti uyğunsuzluğa, hərbi qulluqçunun şərəfini ləkələyən nalayiq hərəkətlər törətdiyinə və törətdikləri cinayətə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılan şəxslər işə qəbul olunmurlar.

Sənədlər Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi) 1 aprel 2017-ci il tarixədək hər gün (bazar günləri istisna olmaqla) saat 9[00]-dan 17[00]-dək qəbul olunacaqdır.

***Əlaqə telefonu: (036) 544-48-50***

### İtmişdir

“Sərxan-82” kiçik müəssisəsinə məxsus möhür itdiyindən etibarsız sayılır.

* * *

Rəhimli Yunis Kərim oğlunun adına verilmiş sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 157